DÜNYA

# London Rusiya dezinformasiyasına qarşı xüsusi mərkəz yaradır

Sentyabr 23, 2026




Böyük Britaniyanın baş naziri Endi Börnem

Böyük Britaniyanın təhlükəsizlik strukturu çərçivəsində yeni qurum – Milli İnformasiya Təhlükəsizliyi Mərkəzi yaradılacaq. Bunu ölkənin baş naziri **Endi Börnem** BMT Baş Assambleyasında çıxışı zamanı bildirib.

Yeni mərkəzin vəzifəsi Rusiya da daxil, düşmən mövqeli dövlətlərin Britaniyanın informasiya məkanında yaydığı dezinformasiyanı aşkarlamaq, mənbəyini müəyyənləşdirmək və qarşısını almaq olacaq.

Börnem Rusiyanı "əsas informasiya təhdidi mənbələrindən biri" adlandırıb. Onun sözlərinə görə, Rusiya hakimiyyəti informasiya manipulyasiyalarına hər il təxminən 1.3 milyard funt sterlinq (1.73 milyard dollar) xərcləyir. Baş nazir bu məqsədlə internet botlarından, saxta internet resurslarından və saxtalaşdırılmış qəzet məqalələrindən istifadə edildiyini deyib. O qeyd edib ki, BBC və universitetlər daxil olmaqla, Britaniyanın azı 28 təşkilatının adı və rəmzləri saxtalaşdırılıb.

**"Söhbət insanların evlərinə girən, onların öz ölkələri və cəmiyyətləri haqqındakı təsəvvürlərini təhrif edən, sanki hər şeyin tənəzzülə uğradığı təəssüratını yaradan, həmçinin parçalanma və narazılıq toxumu səpən gizli bir kampaniyadan gedir"**, – Börnem vurğulayıb.

Baş nazir Britaniya şirkətlərinə və ictimai qurumlarına qarşı kiberhücumlardan, Rusiyanın 2019-cu il parlament seçkilərinə təsir göstərmək cəhdlərindən danışıb. O, süni intellekt texnologiyalarının bu təhdidləri gələcəkdə daha da gücləndirəcəyi barədə xəbərdarlıq edib.

Çıxış zamanı Rusiyanın nümayəndəsi zalda olsa da, Börnemin ittihamlarına münasibət bildirməyib.

2020-ci ildə Böyük Britaniya hökuməti Rusiyanın ölkənin daxili işlərinə, o cümlədən parlament seçkilərinə müdaxilə cəhdlərinə dair hesabat yaymışdı. Rusiya Xarici İşlər Nazirliyi həmin vaxt bu sənədi "rusofob" adlandırmışdı.

## Buna da bax:


Britaniyalı deputatlar 'Maşa və Ayı'nın yayımının dayandırılmasını tələb edir

Putin Avropa liderlərinə niyə 'çoşqa' dedi

Rusiyalı hakerlər 18 mindən çox ruterə çıxış əldə edib


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur